**UOT 657**

# AZƏRBAYCANDA QEYRİ-NEFT SEKTORUNDA MALİYYƏ KAPİTALI

**Anar BAXŞİYEV***

Məqalə redaksiyaya daxil olmuşdur: 27 fevral 2023; çapa qəbul edilmişdir: 15 mart 2023; online-da çap edilmişdir: 31 may 2023.

Received: 27th of February, 2023; accepted: 15th of March, 2023; published online: 31st of May, 2023.

**Açar sözlər:** *qeyri-neft sektoru, prioritet sahələr, maliyyə*

## Giriş

Təbii ehtiyatlarla zəngin ölkələrin əksəriyyəti üçün qeyri-təbii ehtiyatlar sektorunun inkişafı əsas prioritet məsələlərdən biridir. Bu, xüsusilə resurs bumu sonrası dövrdə balanslaşdırılmış uzunmüddətli iqtisadi artımın əldə edilməsi üçün vacib ilkin şərtlərdən biri hesab olunur. Bu sektorun inkişafı mal və xidmətlərə olan daxili tələbatı ödəyə və ixracı təşviq edə bilər ki, bu da öz növbəsində ölkənin valyuta ehtiyatlarının həcminin artmasına səbəb ola bilər və beləliklə, iqtisadiyyatın gələcək inkişafına təkan verə bilər. Beləliklə, müxtəlif iqtisadi siyasətlər və qeyri-təbii resurs sektorunun böyüməsi arasındakı əlaqəni başa düşmək təbii ehtiyatlarla zəngin iqtisadiyyatlar üçün çox vacibdir.

Azərbaycan Respublikası neft və qazla zəngin ölkədir və onun iqtisadiyyatında əsas rolu, neft-qaz gəlirləri təşkil edir. Statistikaya əsasən, keçmiş Sovet İttifaqının digər neft və qaz ixrac edən ölkələri ilə müqayisədə Azərbaycanda qeyri-neft sektorunun inkişafı daha öndəduran dövlət siyasətidir. Qeyd etməliyik ki, 2022-ci ilin yanvar-dekabr aylarında Azərbaycanın ümumi ixracı 38,1 milyard ABŞ dolları, qeyri-neft sektoru üzrə ixrac 3 milyard ABŞ dolları təşkil edib. Qeyri-neft sektoru üzrə ixrac 2021-ci ilin on iki ayı ilə müqayisədə 10,3% artıb.

Azərbaycan hökuməti, qeyri-neft sektorunun, xüsusilə onun ixracyönümlü sahələrinin inkişafı strateji hədəf kimi qəbul edir və buna uyğun iqtisadi planların həyata keçirilməsinə dəstək verir. Azərbaycan hökuməti bu inkişafı dəstəkləmək üçün bir neçə irimiqyaslı layihələrə start verib, agentliklər yaradıb.

Hökumət pul və fiskal siyasət tədbirləri vasitəsilə iqtisadiyyatı tənzimləmək üçün mövcud resurslardan istifadə edə bilər. Qeyri-neft sektorunun inkişafını təmin etmək üçün fiskal və monetar siyasətlər səmərəli şəkildə əlaqələndirilməlidir, çünki onlar artımın stimullaşdırılmasında mühüm rol oynayır. Beləliklə, qeyri-neft sektorunun inkişafının dəstəklənməsi üçün fiskal siyasət tədbirlərinin səmərəli həyata keçirilməsi Azərbaycan iqtisadiyyatında mühüm məsələ kimi qarşıya çıxır. Faktiki olaraq, Azərbaycanın fiskal orqanları neft ixracı gəlirlərinin artan axınının müstəsna imkanlarından istifadə edərək, qeyri-neft sektorunun inkişafını dəstəkləmək üçün bir çox infrastruktur layihələri həyata keçirib.

Bu məqalədə, qeyri-neft sektoru, qeyri-neft sektorunda maliyyə kapitalının səmərəli və mühüm rolu, sektorun inkişafına təsirini təqdim edəcək şəkildə tərtib ediləcəkdir.

Məqalədə Azərbaycanda qeyri-neft sektoru, sektora maliyyə resurslarının cəlb edilməsi üsulları və cəlb edilən maliyyə kapitalının tənzimlənməsi yolları haqqında məlumatlar əks olunmuşdur.

* *magistrant, BAAU*
*e-mail*: anarbaxsiyev1810@gmail.com

**Azərbaycanda qeyri-neft sektorunda hansı sahələr prioritet olmalıdır?**

Qeyri-neft sektorunun inkişafı çox önəmlidir. Çünki neft sektoruna əsaslanan və ondan asılı olan iqtisadiyyat ölkənin davamlı inkişafına mane olur və yüksək inflyasiya, işsizlik kimi problemlər yarada bilər. Qeyri-neft sektoru konsepsiyası bu baxımdan mühüm əhəmiyyət kəsb edir, bu sektor ayrı-ayrı sahələrə bölünür: kənd təsərrüfatı, nəqliyyat, tikinti, ticarət və digər xidmət sahələri.

Bunlardan kənd təsərrüfatı hazırda ölkə iqtisadiyyatı üçün həyati əhəmiyyət kəsb edir. Ərzaq təhlükəsizliyi, qlobal ərzaq böhranı, Ukrayna və Rusiya arasında davam edən müharibə fonunda taxıl qıtlığı kimi məsələlər kənd təsərrüfatının önəmini daha da artırır.

Kənd təsərrüfatının inkişafı texnologiyanın, nəqliyyatın, ticarətin və bu kimi sahələrin inkişafına da öz töhfəsini verir. Azərbaycanda kənd təsərrüfatı sektoru bu gün ölkə iqtisadiyyatında çalışan əhalinin 37%-ni işlə təmin edir. Azərbaycanın xarici ticarət göstəricilərinə nəzər saldıqda kənd təsərrüfatı məhsullarının ixracı, neft məhsullarının ixracından sonra ikinci yerdədir. Məhsuldar torpaqlar, təbii su ehtiyatları və müxtəlif iqlim zonaları Azərbaycanda inkişaf etmiş kənd təsərrüfatı sektoru üçün böyük imkanlar yaradır. Son illər dövlət tərəfindən kənd təsərrüfatına ciddi investisiyalar qoyulub və genişmiqyaslı islahatlar aparılır.

Nəqliyyat sisteminin inkişafı hər bir ölkənin iqtisadi həyatında xüsusi önəm daşıyır. Son illər Respublika səviyyəsində yolların yenidən qurulması, bərpası və genişləndirilməsi, körpülərin, tikilməsi uğurla həyata keçirilir. Xüsusilə də beynəlxalq nəqliyyat-kommunikasiya tranzit dəhlizlərinin yaradılması və perspektiv dəhlizlərin formalaşdırılması istiqamətində aparılan düşünülmüş siyasət nəticəsində Azərbaycanın istər regional, istərsə də qlobal nəqliyyat sistemində geosiyasi çəkisi artır və bu proses postneft dövrünün çağırışlarına adekvat reaksiya verilməsinə öz müsbət təsirini göstərir. (8, s. 88)

Əlverişli coğrafi mövqeyindən yararlanaraq mühüm nəqliyyat-tranzit qovşaqlarından birinə çevrilən Azərbaycan Cənubi Qafqazda geoiqtisadi həmçinin loqistik mərkəz kimi qəbul edilir. Çinin elan etdiyi və reallaşdırmağa başladığı, Pekində başlayıb Londonda bitəcək olan və bütün Avrasiyanı birləşdirəcək İpək Yolu proyektinin üzərində geniş iqtisadi zolağın yaradılmasının fəal dəstəkçisi olan ölkəmiz müxtəlif istiqamətlərə tranzit daşımalarının səmərəli təşkilinə etibarlı təminat verir. Bu səbəbdən ölkəmizin ərazisindən keçən "Şərq-Qərb", "Şimal-Cənub" və "Cənub-Qərb" beynəlxalq nəqliyyat dəhlizləri Azərbaycanın loqistik bir hala çevrilməsi üçün real imkanlar yaradır. (7, s. 15)

Dünya 2022-ci ilin fevralından etibarən yeni bir dövrə qədəm qoydu. Rusiyanın Ukraynanı işğalı ilə başlayan bu proses nəticəsində dünya ərzaq və enerji qıtlığı təhlükəsiylə qarşılaşdı, beynəlxalq nəqliyyat və turizm marşrutları dəyişdi. Ancaq burada gözəçarpan əsas nüanslardan biri də, silah sənayesinin problemləri oldu. Belə ki, Azərbaycanın 2020-ci il də keçirdiyi əməliyyatlardan sonra onsuz da, dünya silah sənayesi yeni bir mərhələyə qədəm qoymuşdu. Ancaq Ukrayna müharibəsi fərqli bir nüansı ortaya çıxartdı. Silah sənayesi, müasir texnologiyalardan istifadə edərək möhtəşəm silahları meydana çıxardır, ancaq bu özlüyündə yeni problemlər yaradır.

Texnologiyalarla ərsəyə gətirilmiş bir silah, döyüş meydanında sıradan çıxdıqda onun təmiri və ya yenisi ilə əvəz edilməsi, aylar hətta illər çəkə bilər. Bu isə beynəlxalq silah bazarında böyük bir silah-sursat çatışmazlığı yaratmışdır. ABŞ kimi dünyanın ən qüdrətli silah sənayesinə sahib olan ölkə belə, Ukraynanı silah və sursatlarla təchiz etdikdən sonra, bütün silah sənaye komplekslərinin tam gücüylə fəaliyyət göstərdiyi təqdirdə belə, ən yaxşı halda 3 ilə öz silah anbarlarında olan ehtiyatlarını müharibədən əvvəlki dövrə çatdıra biləcəkdir.

Prezident İlham Əliyev də çıxışlarında, Azərbaycanın bu yaranan silah ticarəti boşluğundan özünə pay götürməli olduğunu dəfələrlə vurğulamışdır. Təbii ki, Azərbaycan

yüksək texnologiyaların tətbiqi ilə ərsəyə gələn silahları qısa müddətdə istehsal edə biləcək müəssisə və texnologiyalara sahib deyil. Ancaq, Azərbaycanın silah sənayesi müəssisələri illərdir müəyyən atıcı silahların, mina-atanların, mərmilərin və bu qəbildən olan digər silah sənayesi məhsullarının istehsalı ilə dərindən məşğul olmaqdadır. 2020-ci il payız-qış hərbi əməliyyatlarında Azərbaycan Ordusunun böyük ölçüdə yerli silahlardan istifadə etməsi də, bu faktı bir daha təsdiq etməkdədir. Azərbaycan silah sənayesi həmçinin illərdir texnologiya transferi ilə, ölkədə müəyyən hərbi texnikaların yığımını və ehtiyat hissələrinin bir qisminin istehsalını da həyata keçirtməkdədir.

2023-cü il də Türkiyənin Baykar Makina şirkəti Azərbaycan da qeydiyyatdan keçərək, Azərbaycan da silah sənayesi sahəsində müəssisələrinin fəaliyyət göstərəcəyini bildirmişdir. Bu hal Azərbaycan sənayesində silah istehsalının payını artırmaqla yanaşı, yeni iş yerlərinin yaranmasına səbəb olacaq, məşğulluğu artıracaq, ən əsası isə yerli silah texnoloq və mütəxəssislərinin daha çox təcrübə əldə etməsinə şərait yaradacaqdır.

**Qeyri-neft sektorunda maliyyə kapitalının cəlb edilməsi və cəlb edilən kapitalın tənzimlənməsi**

Azərbaycan coğrafi mövqeyi, insan kapitalı, gənc əhalisi və geniş iqtisadi gücü ilə istər xarici, istərsə də daxili maliyyə kapitalını özünə çox rahatlıqla cəlb edə biləcək potensiala sahibdir.

90-cı illər də Azərbaycan xarici kapitalı geniş miqyasda özünün neft-qaz sektoruna cəlb etməyi bacarmışdır. Azərbaycanın həyata keçirdiyi BTC neft-boru kəməri çox böyük daxil və xarici kapitalı özünə cəlb etmiş ən böyük Azərbaycan layihəsidir. (1, s. 161)

Ancaq hazır da, maliyyə kapitalının əsas cəlb edilməli olduğu sahə qeyri-neft sektorudur. Daxili Kapitalın ən böyük oyunçusu dövlət və dövlət dəstəkli şirkətlərdir ki, bunlar da müəyyən çərçivədə, yenə neft sektorundan əldə edilən xammal ilə istehsal həyata keçirtməkdədir. Sumqayıt Sənaye Parkı və Mingəçevir Texnologiya Parkında fəaliyyət göstərən müəssisələr böyük ölçüdə neftdən əldə olunan xammal ilə istehsallarını həyata keçirtməkdədir. (6, s. 142)

Dövlət dəstəyi olmayan daxili investorlar, təbii ki, müəyyən ölçüdə maliyyə kapitalı ilə investisiya planlarını həyata keçirdirlər. Ancaq bunlar kiçik və orta sahibkarlıq subyektləridir və böyük həcmli müəssisələr deyil. Dövlət dəstəyi olmadan, müstəqil investorlar vergi güzəştləri, daha az faizli kredit və rahat satış bazarı səbəbi ilə, əsasən kənd təsərrüfatı sahəsinə yönəlirlər. (5, s. 29) Qeyri-neft sektorunda daxili maliyyə kapitalının əsas tətbiq olunduğu sahə kənd təsərrüfatıdır. Ət və süd istehsalı, broyler müəssisələri, istixana tərəvəzçiliyi, üzümçülük, quru meyvə, şərabçılıq və bu kimi sahələr müəyyən ölçüdə vergilərdən azad olunduğu üçün daxili kapital əsasən bu sahələrə yönəlmişdir. (4, s. 40)

Neft sektorundan tamamilə müstəqil istehsal həyata keçirdə biləcək sənaye müəssisələri Azərbaycanda rahatlıqla fəaliyyət göstərə bilər. Azərbaycanın neft və qazdan başqa geniş dəmir-filiz və bu qəbildən olan digər xammal resurslarının mövcudluğu xarici kapitalı özünə cəlb edə bilər. Gəncə-Qazax və Şərqi-Zəngəzur bölgələri faydalı qazıntılarla çox zəngindir.

Əsrin əvvəllərində “Chevrolet şirkəti” Rusiya, Cənubi Qafqaz, Orta Asiya və Yaxın Şərq üçün istehsalı həyata keçirdəcək müəssisəni Azərbaycan da inşa etməyi planlaşdırmışdı. Ancaq dövrün siyasi mühiti, gərginləşən İran Azərbaycan münasibətləri, həmçinin Azərbaycanın vergi qanunvericiliyi şirkəti müəssisəni Özbəkistanda açmağa vadar etmişdir.

Azərbaycanın xarici maliyyə kapitalını özünə cəlb etməsinin əsas yolları bunlardır: (2, s. 32)

•azad iqtisadi zonalar yaratmaq;
•müəyyən sahələr üzrə ixtisaslaşmış sənaye parkları yaratmaq;
•xammal və ehtiyat hissə idxalının ƏDV-dən və digər rüsumlardan azad edilməsi;
•xammal istehsalının təşviq edilməsi;
•ümumi və çoxillik vergi güzəştlərinin tətbiq edilməsi;
•azad və ədalətli məhkəmə sisteminin yaradılması;

Bütün bunlar, daha rahat istehsal və iş mühiti arzualayan xarici investorları Azərbaycanda iş görməyə həvəsləndirəcəkdir.

Cəlb olunun maliyyə kapitalına nəzaraət edilməsi, özlüyündə mühüm bir prosessdir. Burda əsas məsələlər bunlardır (3, s. 57):

•maliyyə kapitalının mənbəyi (çirkli pulların olub olmaması);
•cəlb olunan kapitalın davamlı olması;
•vergi güzəştləri də daxil olmaqla, tətbiq edilən güzəştlərdən sui-istifadə edilməməsi (bax : Türkiyə, Özal dövrü, xəyali ixracatçılar);
•İqtisadi-Kommersiya Məhkəmələrinin haqlı fəaliyyəti.

Bütün bunların fonunda, müəyyən vergi güzəştləri, iqtisadi azadlıq, məhkəmə hüquq islahatları kimi məsələlər öz həllini tapdıqdan sonra, Azərbaycan xarici maliyyə kapitalını özünə çox rahatlıqla cəlb edə biləcəkdir.

**Nəticə**

Bu tədqiqat qeyri-neft sektorunun rolunu müəyyənləşdirir. Azərbaycan iqtisadiyyatının rəqabətqabiliyyətli qeyri-neft sektorlarına xarici investorların cəlb edilməsi ixrac potensialından düzgün istifadə sahəsində mərkəzi vəzifələrdən biri olaraq qalır. Xarici investisiyaların axını üçün əlavə stimul qeyri-neft sektorunda qabaqcıl texnologiyaların və innovasiyaların tətbiq oluna biləcəyi azad ticarət zonalarının yaradılmasıdır. Bu ideya GUAM, MDB və ya Türk Dövlətlər Birliyi çərçivəsində də inkişaf etdirilə bilər, çünki bu sahədə kollektiv iqtisadi layihələr daha sərfəli ola bilər. Azad ticarət zonasının yaradılması həm tərəfdaş ölkələrdən, həm də üçüncü ölkələrdən kapital axınını artırmaq üçün stimul ola bilər.

## ƏDƏBİYYAT


1. Əliyev A. Azərbaycanda qeyri-neft sektorunun inkişafı, Bakı, 2005, 328 s.
2. Hüseynov R. Azərbaycanın ekonomik inkişafı, Bakı, 2007, 261 s.
3. Quliyev V. Maliyyə kapitalın tənzimlənməsi, Bakı, 2010, 204 s.
4. Qurbanova T.H. Regional siyasətin dövlət tənzimlənməsi və aqrar sahənin səmərəliliyinin yüksəldilməsi istiqamətləri, Bakı, 2010, 198 s.
5. Rzayev İ.M. Azərbaycan Respublikasında regionların davamlı sosialiqtisadi inkişafı: mövcud vəziyyət və gələcək perspektivlər, Bakı, 2010, 294 s.
6. Şəkərəliyev A.Ş. Dövlətin iqtisadi siyasəti: reallıqlar və perspektivlər, Bakı, 2009, 307 s.
7. Yəhyayeva A.Y. Sənaye sektoruna xarici investisiyaların cəlb edilməsi strategiyası və onun səmərəliliyinin artırılması istiqamətləri, Bakı, 2009, 185 s.
8. Zöhrab İ., Mehtiyev A., Ağayev R., Aslanlı K. İqtisadiyyatın və ixracın diversifikasiyasının qiymətləndirilməsi. Azad İqtisadiyyata Yardım İctimai Birliyi, 2013, 338 s.

***Summary***

***Anar Bakhshiyev***

***Financial Capital in Non-Oil Sector in Azerbaijan***

Today, the economy of Azerbaijan is entering a new stage of development. Factors that ensured a high growth rate in the past cannot perform the same functions in the future due to a number of objective reasons. The stark reality is that competition in world markets is becoming increasingly fierce, and relatively cheap imports are crowding out the domestic market. In order to maintain a stable growth rate, it is necessary to use new growth factors that will lead to the transformation of the socio-economic model that meets the requirements of the modern world economy.

Currently, Azerbaijan is one of the international centers crossing important transport and communication routes from Asia to Europe. After gaining state independence, Azerbaijan implemented a generally balanced economic policy, the main direction of which is the creation of a new development model based on different forms of ownership and the formation of a competitive economy adapted to the conditions of globalization.

***Key words:*** *non-oil sector, priority areas, finance*

***Резюме***

***Анар Бахшыев***

***Финансовый капитал в ненефтяном секторе Азербайджана***

Сегодня экономика Азербайджана выходит на новый этап развития. Факторы, обеспечивавшие высокие темпы роста в прошлом, не могут выполнять те же функции в будущем в силу ряда объективных причин. Суровая реальность такова, что конкуренция на мировых рынках становится все более жесткой, а относительно дешевый импорт вытесняет внутренний рынок. Для поддержания стабильных темпов роста необходимо использовать новые факторы роста, которые приведут к трансформации социально-экономической модели, отвечающей требованиям современной мировой экономики.

В настоящее время Азербайджан является одним из международных центров, пересекающих важные транспортно-коммуникационные пути из Азии в Европу. После обретения государственной независимости Азербайджан проводил в целом взвешенную экономическую политику, основным направлением которой является создание новой модели развития на основе различных форм собственности и формирование конкурентоспособной экономики, адаптированной к условиям глобализации.

***Ключевые слова:*** *ненефтяной сектор, приоритетные направления, финансы*

Redaksiya heyətinin üzvü i.e.d., prof. Məmmədov Elşad Yaqub oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.